## Tipologiya 3. İşsiz şəxslərin işə düzəldilməsi vədi ilə aldadılaraq (dələduzluq) onlara məxsus vəsaitlərin mənimsənilməsi

İş axtaran şəxslərin işədüzəldilməsində vasitəçilik fəaliyyəti ilə məşğul olan "A" şəxsi ayrı-ayrı mənbələr (sosial şəbəkələr, e-poçt, elanlar və sair) vasitəsilə işədüzəltmə barədə elanlar yayır. Elanlarda işsiz şəxslərin yüksək maaşlı təşkilatlarda işə düzəltmə vədi verilir və əlaqə vasitəsi kimi müxtəlif mobil telefon nömrələri göstərilir.

Elan olunmuş işlərdə çalışmaq istəyən şəxslər "A" şəxsinə telefon vasitəsi ilə müraciət edir və şəxslər arasında işədüzəlmə məsələsi müzakirə olunur. "A" şəxsi müraciət edən şəxsə bank hesabının nömrəsini bildirir və ödəniş terminalları vasitəsilə həmin hesaba müəyyən məbləğdə xidmət haqqı ödənilməsi şərti ilə qısa müddət ərzində (adətən 7-15 gün) həmin işə düzələcəyinə zəmanət verir.

Bundan sonra, iş axtaran şəxslər "A" şəxsinin sözügedən bank hesabına razılaşdırılmış xidmət haqqı məbləğini köçürür və qeyd olunmuş müddətdə iş təklifi gözləyir. Adətən, belə ödənişlərin məbləği 30-400 manat intervalında olur.

Gözləmə müddəti başa çatdıqdan sonra işsiz və ya iş axtaran şəxs "A" şəxsi ilə əlaqə saxlamağa çalışsa da, "A" şəxsinin əlaqə nömrəsi ya cavab vermir, yaxud da telefona zəng çatmır.

Bu hal adətən, bir və ya bir neçə gün davam etdikdən sonra müəyyən qrup iş axtaran şəxslər "A" şəxsi tərəfindən aldadıldığını dərk edir. Belə hallarda müxtəlif şəxslər müxtəlif davranış nümayiş etdirirlər. Bəzi şəxslər məbləğin kiçik olması səbəbindən müvafiq hal ilə bağlı aidiyyəti səlahiyyətli dövlət orqanlarına və maliyyə institutlarına müraciət etmirlər. "A" şəxsi kimi dələduzluq əməli törədən şəxslər də məhz belə davranışların çoxluq təşkil edəcəyinə arxalanaraq bu əməli törədirlər.

Digər qrup şəxslər hələ də dələduzluğun qurbanına çevrildiklərini qəbul etmirlər. Lakin məhz üçüncü qrup şəxslər (bu halda ən düzgün davranışa sahib şəxslər) məsələnin araşdırılması üçün aidiyyəti təşkilatlara (adətən, banka) və qurumlara müraciət edərək "A" şəxsi, onun hesabı və digər eyniləşdirmə məlumatları barədə informasiya verirlər.

İş axtaran şəxslər tərəfindən "A" şəxsinə ödəniş edildikdən qısa müddət sonra "A" şəxsi müxtəlif bankomatlar vasitəsilə müvafiq vəsaitləri hissə-hissə nağd şəkildə məxaric edir. Bu yol ilə əldə edilmiş vəsaitlər "A" şəxsi tərəfindən ona məxsus digər bank hesabına köçürülür, yaxud nağd şəkildə müxtəlif malların (avtomobil, zərgərlik məmulatları və s.) alışına sərf olunur.

**İstifadə olunmuş mexanizmlər, alətlər və metodlar**

- "A" şəxsi iş üçün müraciət edən şəxslərlə telefon danışıqlarında psixoloji inandırma metodlarından istifadə etməklə həmin şəxslərin etibarını qazanır;
- kiçik məbləğli xidmət haqqı ödənişnini edilməsi müqabilində "A" şəxsi iş axtaran şəxsin qısa müddətdə iş ilə təmin olunması barədə vəd verir;

- “A” şəxsinin hesabına köçürülüən xidmət haqqı ödənişlərinin ödəniş terminalları vasitəsilə nağd şəkildə edilməsi barədə təlimat verilməsi;

**İndikatorlar**

- Bank hesabına müxtəlif ödəniş terminalları vasitəsilə ayrı-ayrı vaxtlarda xırda məbləğlərdə vəsaitlərin daxil olması;
- Bank hesabına daxil olan vəsaitlərin qısa zaman ərzində müxtəlif bankomatlar vasitəsi ilə nağd şəkildə məxaric edilməsi;
- “A” şəxsinin banka aktiv olmayan telefon nömrəsi təqdim etməsi;
- Şəxsin real yaşayış yerinin şəxsiyyətini təsdiq edən sənəddə qeyd olunmuş yaşayış yeri ilə üst-üstə düşməməsi;
- İş axtaran şəxslərin “A” şəxsi ilə əlaqə yarada bilməməsi.

